AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

## NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ VƏ NARKOMANLIĞA QARŞI MÜBARİZƏNİN NƏTİCƏSİNƏ DAİR

# İLLİK HESABAT 2025




Ön söz

Təşkilati tədbirlər

Beynəlxalq əməkdaşlıq

Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönələn tədbirlər

AZƏRBAYCAN RESPUBLİKASI

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

# İLLİK HESABAT 2025

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2025-ci il 17 sentyabr tarixli, 721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın 8.1.1-ci yarımbəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən hazırlanmışdır.**

AZE 1016, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40,
Hökumət evi
www.nmdk.gov.az
info@nmdk.gov.az
(994 55) 600-08-02
(994 70) 400-08-02
(994 12) 498-58-82
(994 12) 498-25-28
(994 12) 493-35-74

802
Qaynar xətt:



*"Narkotik maddələrin qeyri-qanuni dövriyyəsi bu gün üçün də, gələcək üçün də həqiqətən bəşəriyyətə təhlükə doğuran amillərdən biridir. "*

***Heydər Əliyev***
***Ümummilli Lider***



*"Azərbaycanda narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir."*

***İlham Əliyev***

*Azərbaycan Respublikasının Prezidenti*

# MÜNDƏRİCAT


| | |
|---|---|
| *Ön söz* | 5 |
| *Təşkilati tədbirlər* | 7 |
| *Normativ hüquqi bazanın təkmilləşdirilməsi* | 10 |
| *Beynəlxalq əməkdaşlıq* | 12 |
| *Narkomanlığa qarşı mübarizə sahəsində vətəndaş fəallığının artırılmasına yönələn tədbirlər* | 16 |
| *Hüquq mühafizə orqanları tərəfindən görülmüş işlər* | 19 |
| *Dünyada narkotiklərlə bağlı vəziyyətə dair təhlil* | 39 |
| *Narkotik asılılığı olan şəxslərin müəyyən edilməsi və müalicəsi, bu sahədə aparılan tədqiqatlar* | 44 |
| *Narkomanlığa qarşı mübarizə sahəsində təbliğat, profilaktika və monitorinq işinin təşkili* | 52 |

# ÖN SÖZ

# ÖN SÖZ

Müasir dövrdə narkotik vasitələrin qanunsuz dövriyyəsi və narkomaniya qlobal miqyasda təhlükəsizlik, sosial sabitlik və insan sağlamlığı üçün ciddi təhdidlərdən biri olaraq qalmaqdadır. Bu təhlükə öz miqyasına və təsir dairəsinə görə yalnız ayrı-ayrı dövlətlərin deyil, bütövlükdə bəşəriyyətin bu günü və gələcəyi üçün strateji risklər formalaşdırır.

Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin qarşısının alınması üzrə həyata keçirilən sistemli və çoxşaxəli fəaliyyət, tətbiq edilən mübarizə mexanizmləri müvafiq çağırışlara cavab verən effektiv idarəetmə modelinin formalaşdırılmasını, institusional imkanların genişləndirilməsini təmin etmiş, mahiyyətcə gənc nəslin sağlam inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına və cəmiyyətin təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edir.

Aydındır ki, bu sahədə müsbət nəticələrin davamlı surətdə əldə olunması – dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının və digər aidiyyəti qurumların səylərinin əlaqələndirilməsini, innovativ yanaşmaların və mütərəqqi təcrübənin tətbiqini, həmçinin beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini tələb edir.

Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nda konkret məqsədlər və icra mexanizmləri qlobal və regional tendensiyalar nəzərə alınmaqla dəqiq müəyyən edilmiş, aparılan siyasət isə məhz ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət strategiyasının tərkib hissəsidir.

Hazırda həmin konseptual sənədin müddəalarına uyğun olaraq müasir texnoloji imkanlardan, analitik idarəetmə alətlərindən və qabaqcıl yanaşmalardan istifadə olunmaqla narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması ilə bağlı əlaqələndirilmiş kompleks tədbirlər həyata keçirilir.

Eyni zamanda, narkomanlığın yayılmasının məhdudlaşdırılması, narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi və reabilitasiyasının keyfiyyətinin artırılması yönümündə işlər davam etdirilir.

Paralel olaraq normativ hüquqi bazanın təkmilləşdirilməsi, ixtisaslaşmış tibb müəssisələrinin maddi-texniki təminatının yaxşılaşdırılması, yerli komissiyaların fəaliyyətinin səmərəliliyinin artırılması, yeniyetmələr, gənclər və digər həssas sosial qruplar arasında maarifləndirmə işi, sağlam həyat tərzinin daha fəal təbliği üzrə tədbirlər görülür.

Narkotiklərə olan tələbatın azaldılması məqsədilə hüquq mühafizə orqanlarının həyata keçirdiyi preventiv tədbirlər və əməliyyat-axtarış fəaliyyəti, media və rəqəmsal platformalarda tematik proqramların yayılması ardıcıl xarakter daşıyır.

Nəticə etibarı ilə, son illər narkotiklərlə bağlı cinayətlərin aşkarlanması, qarşısının alınması və qaçaqmalçılıq kanallarının ifşası kimi mühüm istiqamətlərdə irəliləyişlər əldə edilmiş, qanunsuz dövriyyədən isə hər il iri həcmdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının çıxarılmasına nail olunmuşdur.

Əminliklə qeyd etmək olar ki, həyata keçirilən tədbirlər narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin daha da gücləndirilməsinə, bu sahədə sabit və dayanıqlı nəticələrin əldə olunmasına xidmət edəcəkdir.

**Vilayət Eyvazov**

**Azərbaycan Respublikasının daxili işlər naziri, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədr müavini**

# TƏŞKİLATİ TƏDBİRLƏR

NARKOMANLIĞA VƏ NARKOTİK VASİTƏLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ
DÖVLƏT KOMİSSİYASI

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.1-ci yarımbəndinin icrası ilə əlaqədar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində 2024-cü ildə görülmüş işlərə dair hesabat hazırlanaraq Dövlət Komissiyasının rəsmi saytında yerləşdirilmişdir.







Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.3-cü yarımbəndinin icrası ilə əlaqədar vətəndaşlara daha operativ və səmərəli xidmətin təşkili məqsədilə, interaktiv səs qurğusunun və digər texniki vasitələrin imkanlarından istifadə etməklə səsli menyu vasitəsilə “802 Qaynar Xətt”inin fəaliyyəti barədə vətəndaşlara məlumat verilməsi təmin edilmiş, habelə “Qaynar Xətt' xidmətinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində daxil olan müraciətlərin qeydiyyatının aparılmasının təkmilləşdirilməsi və icra prosesinin izlənməsi üçün elektron baza hazırlanmış və tətbiq edilmişdir.



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.6-cı yarımbəndinə əsasən, paytaxtın Sabunçu rayonundakı İxtisaslaşdırılmış Narkoloji Tibb Müəssisəsinin tikintisinin layihələndirilməsi və həyata keçirilməsi üçün 2025-ci ilin dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərindən Səhiyyə Nazirliyinə 4 milyon manat vəsait ayrılmış, o cümlədən 231 çarpayılıq ixtisaslaşdırılmış narkoloji tibb müəssisəsinin tikintisi davam etdirilmişdir (2026-cı ildə həmin tədbir üçün 8 milyon manat nəzərdə tutulub).

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.8-ci yarımbəndinə uyğun olaraq narkomanlıq xəstəliyindən əziyyət çəkən şəxslərin müalicəsinin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət narkoloji tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı layihə-smeta sənədləri hazırlanmış və Səhiyyə Nazirliyi tərəfindən dövlət narkoloji tibb müəssisələrinin tikintisinin dövlət əsaslı vəsait qoyuluşu hesabına həyata keçirilməsi nəzərdə tutulmuş müvafiq layihələrin siyahısına daxil edilərək İqtisadiyyat Nazirliyinə vəsaitin ayrılması barədə təklif təqdim olunmuşdur.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.13-cü yarımbəndinə əsasən, narkotik asılılığının qarşısının alınması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə hazırda Xarici İşlər Nazirliyi ilə birgə bu istiqamətdə uğurlu nəticələri olan dövlətlərin strategiyaları təhlil edilir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.17-ci yarımbəndinin icrası ilə əlaqədar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi məqsədilə istifadə edilən maliyyə mexanizmlərini, ödəniş üsul və vasitələrini, satışdan əldə edilən vəsaitin yönəldildiyi əsas sahələri (aktivləri), habelə bu cür vəsaitlərin leqallaşdırılma üsullarını müəyyənləşdirməklə risk indikatorlarının formalaşdırılması məqsədilə qurumlararası İşçi qrup yaradılmış və 2025-ci il 3 dekabr tarixdə işçi qrupun ilk iclası keçirilmişdir. İclasda risk indikatorlarının formalaşdırılması üzrə fəaliyyət istiqamətləri müzakirə edilmiş və görüləcək işlərin bölgüsü aparılmışdır.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı” Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən jurnal formasında çap edilmiş və aidiyyəti icraçı orqanlara göndərilməsi təmin edilmişdir.



# NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ



# NORMATİV HÜQUQİ BAZANIN TƏKMİLLƏŞDİRİLMƏSİ

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli 721 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.2. bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 sentyabr tarixli 599s nömrəli Sərəncamının 1-ci hissəsinə əsasən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlanmışdır.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.2.2-ci yarımbəndinə uyğun olaraq narkotik asılılığı olan şəxslərin narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növü və vəzifələr üzrə işə qəbulunun qarşısının alınması və işəgötürənin məsuliyyətinin artırılması məqsədilə Azərbaycan Respublikasının Əmək və İnzibati Xətalar məcəllələlərində dəyişiklik edilməsi haqda qanun və əlaqəli fərman layihələri hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.3.1-ci yarımbəndinə uyğun olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlığın davam etdirilməsi məqsədilə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMTNCİ), Narkotiklər və Narkotik Aludəçiliyi üzrə Avropa Monitorinq Mərkəzi (NNAAMM), Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzi (MARİƏM) ilə narkotiklərin qanunsuz dövriyyəsi və narkotiklərdən istifadənin qarşısının alınması istiqamətində qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilmiş, habelə BMT-nin bu sahədə qəbul etdiyi Konvensiyalarının icrası ilə bağlı, eləcə də digər təhlil və məlumat xarakterli sorğu vərəqələrinin aidiyyəti qurumları tərəfindən cavablandırılaraq təqdim edilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.3.2-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikası ilə xarici dövlətlər arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində imzalanmış beynəlxalq müqavilələrin öhdəliklərinin effektiv icrasının təmin edilməsi istiqamətində əlavə tədbirlər görülməsi məqsədilə, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun icrası istiqamətində tədbirlər davam etdirilmiş, tərəflər arasında narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı məlumat mübadiləsi müntəzəm şəkildə həyata keçirilmişdir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.3.4-cü yarımbəndinə uyğun olaraq, aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 68-ci sessiyasında, Maliyyə Təşkilatlarının Narkotiklərə Qarşı Mübarizə (FIAD) təşəbbüsünün ilk iclasında, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin təşkilatçılığı ilə Avropanın Narkotiklərlə əlaqəli məsələlər üzrə Milli Hüquq Mühafizə Orqanları



rəhbərlərinin 16-cı iclasında, Beynəlxalq Narkotiklər üzrə Qanunvericilik Şəbəkəsinin (INLOD) ilk Qlobal Görüşündə, “Yüksək risklər, təhlükəsiz səma: qlobal sintetik narkotik




probleminə qarşı aviyasiya sektorunun cavablarının gücləndirilməsi” mövzusunda iclasda, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin təşkilatçılığı ilə açıq tərkibli ekspert qrupunun “Qlobal səviyyədə mövcud sintetik tərkibli narkotiklər probleminin həlli istiqamətində beynəlxalq və regional müstəvidə əməkdaşlığın və ölkədaxili səylərin gücləndirilməsi” mövzusunda keçirilmiş iclasda, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin heroin və metamfetaminin Cənubi Qafqaz və Şimal marşurutu ilə qeyri-qanuni ticarəti üzrə ekspert işçi qrupunun iclasında, Mərkəzi Asiya üzrə Regional İnformasiya və



Əlaqələndirmə Mərkəzinin (MARİƏM) Milli Əlaqələndiricilər Şurasının iclaslarında, Avropa İttifaqının Hüquq-mühafizə Təlimləri üzrə Agentliyi (CEPOL) tərəfindən 2025-ci il üzrə hüquq-mühafizə orqanları üçün təşkil edilən mübadilə proqramında, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad tədbirləri üzrə Müşavirənin (AQEM) təşkilatçılığı ilə keçirilmiş görüşdə, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Sərnişin və Yük Nəzarəti Proqramı çərçivəsində “Dəniz limanlarının təhlükəsizliyi və risklərin idarə edilməsi: narkotiklər, prekursorlar və ikili təyinatlı malların aşkarlanmasının səmərəliliyinin artırılması” mövzusunda təşkil edilmiş təlimdə, Avropa Şurasının Narkotik və Asılılıqlar üzrə Beynəlxalq Əməkdaşlıq Qrupunun (Pompidu qrupu) daimi müxbirlərinin növbəti iclasında, BMT-nin Sərnişin və Yüklərə Nəzarət Proqramı çərçivəsində keçirilən Siyasi Səviyyəli İllik Regionlararası 10-cu iclas və Gömrük Orqanları və Liman Nəzarət Qruplarının Regionlararası Şəbəkəsinin (IREN) ekspert səviyyəli 7-ci iclasında, Avstraliya Sərhəd Xidməti və Ümumdünya Gömrük Təşkilatının təşkilatçılığı ilə Ümumdünya Gömrük Təşkilatının təchizat zəncirinin bütövlüyü layihəsi çərçivəsində “Cinayətkar qruplar tərəfindən pozulmuş beynəlxalq təchizat zəncirləri: birgə cavab” mövzusunda təşkil olunmuş konfransda və digər tədbirlərdə iştirakı təmin edilmişdir.



# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

**802**

**Qaynar xətt:**


www.nmdk.gov.az

info@nmdk.gov.az

## NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ VƏTƏNDAŞ FƏALLIĞININ ARTIRILMASINA YÖNƏLƏN TƏDBİRLƏR

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.4.20-ci yarımbəndinə uyğun olaraq Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu (bundan sonra – Dövlət Komissiyasının İşçi Qrupu) tərəfindən hazırlanmış “802 qaynar xətt” telefon xidmətinin fəaliyyət istiqamətlərinə dair videoçarxın Bakı şəhərinin küçə və prospektlərindəki reklam lövhələrində, metro stansiyalarının monitorlarında, özəl tibb mərkəzində, habelə ölkə üzrə bütün televiziya kanallarının və radio yayımçılarının efirlərində mütəmadi yayımlanması davam etdirilmişdir.







Həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun ümumölkə televiziya kanallarında işıqlandırılmasının monitorinqini həyata keçirmiş, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxların televiziya kanalları vasitəsilə 2025-ci il ərzində ümumilikdə 16892 dəfə yayımlanması, televiziya kanallarında ekspertlərin iştirakı ilə 110 xüsusi verilişin təşkil edilməsi, ümumölkə və regional yerüstü radio yayımçılarının efirində isə 11813 dəfə yayımlanması, habelə narkomanlığın zərəri ilə bağlı müəllif süjetlərinin hazırlanması təmin edilmişdir.







Ötən il “802 qaynar xətt” telefon xidmətinə, “055-600-08-02” mobil telefon nömrəsi vasitəsilə “Whatsapp”, “070-400-08-02” mobil telefon nömrəsi ilə “Teleqram” hesablarına ümumilikdə 1.225 müraciət daxil olmuşdur. Onlardan 138-i narkotik vasitələrin qanunsuz satışı (32 müraciət əsasında cinayət işləri başlanılıb, 37 iş isə nəzarətə götürülüb), 57-si narkomaniyadan müalicə (24 nəfər stasionar müalicəyə cəlb olunub), 1.030-u isə digər məsələlərlə (təkrar müraciətlər, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) əlaqədar olmuşdur. Həmin müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 268 məktub ünvanlanmış, digər zəruri tədbirlər görülmüşdür.

| 2024/2025-ci illər ərzində 802 qaynar xətt telefon xidmətinə daxil olan müraciətlər barədə müqayisəli məlumat | | | | |
|---|---|---|---|---|
| | 2024-cü il | 2025-ci il | Fərq | %-lə |
| Cəmi | 1668 | 1225 | -443 | -26,6 |
| Müalicə | 114 | 57 | -57 | -50 |
| Satış | 154 | 138 | -16 | -10,4 |
| Digər | 1400 | 1030 | -370 | -26,4 |

Beləliklə, “802 qaynar xətt” telefon xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısının alınması məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təşkil edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında cinayət işlərinin başlanılması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin götürülməsi təmin edilmiş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək göstərilmiş, vətəndaşlara mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınmasında vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübirizə üzrə Dövlət Komissiyasının daimi fə aliyyət göstərən İşçi Qrupunun rəsmi sosial şəbəkə hesablarında (feysbuk, instaqram, yutub, teleqram, twitter) izahat işlərinin aparılması davam etdirilmiş və vətəndaşlar tərəfindən verilən məlumatlar əsasında effektiv nəticələri olan bir çox əməliyyat tədbirləri keçirilmişdir.



# HÜQUQ MÜHAFİZƏ ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLMÜŞ İŞLƏR

2025-ci ildə hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri ilə ümumilikdə 7.763 cinayət faktı aşkarlanmışdır. Onlardan 2.613-ü narkotik vasitələrin qanunsuz satışı, 4.959-u qanunsuz əldə edilib saxlanılması, 187-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 4-ü bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.




Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 9 ton 093 kq 290,457 qram narkotik vasitələrin və psixotrop maddələrin 7 ton 669 kq 612,24 qramını marixuana, 751 kq 285,014 qramını heroin, 145 kq 692,812 qramını tiryək, 161 kq 839,242 qramını həşiş, 153,551 qramını kokain, 208 kq 931,801 qramını digər narkotik vasitələr və 155 kq 775,797 qramını psixotrop maddələr təşkil etmişdir. Həmçinin, hesabat ilində qanunsuz dövriyyədən 15.216 ədəd metadon həbi, 13 ədəd (600 qr) xaş-xaş bitkisi, eləcə də 3 kq 688,3 qram, 13727 həb, 39 kapsul güclü təsir edən maddə və 18.937 ədəd çətənə kolu götürülmüşdür.

**2024-2025-ci illər ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr**

| | 2024-cü il | 2025-ci il | Fərq | %-lə |
|---|---|---|---|---|
| **Cəmi** | 6 ton 832 kq 879,937 qr | 9 ton 093 kq 290,457 qr | +2 ton 260 kq 410,52 qr | +33,1 |
| **Marixuana** | 5 ton 711 kq 629,989 qr | 7 ton 669 kq 612,24 qr | +1 ton 957 kq 982,251 qr | +34,3 |
| **Həşiş** | 38 kq 852,443 qr | 161 kq 839,242 qr | +122 kq 986,799 qr | +316,5 |
| **Tiryək** | 166 kq 029,64 qr | 145 kq 692,812 qr | -20 kq 336,828 qr | -12,3 |
| **Heroin** | 543 kq 694,9 qr | 751 kq 285,014 qr | +207 kq 590,114 qr | +38,2 |
| **Kokain** | 99,498 qr | 153,551 qr | +54,053 qr | +54,3 |
| **Psixotrop maddələr** | 215 kq 771,047 qr | 155 kq 775,797 qr | -59 kq 995,25 qr | -27,8 |
| **Digər narkotik vasitələr** | 156 kq 802,42 qr | 208 kq 931,801 qr | +52 kq 129,381 qr | +33,3 |

### 2025-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




### 2025-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr



Təqdim olunan hesabatlar təhlil olunarkən müəyyən edilmişdir ki, ötən il ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkar edilmiş 7533 fakt üzrə qanunsuz dövriyyədən 5 ton 801 kq 744,3 qr narkotik vasitə və psixotrop maddə (4 ton 990 kq 960,5 qr marixuana, 283 kq 209 qr heroin, 130 kq 319,6 qr tiryək, 69 kq 626,9 qr həşiş, 201 kq 283,7 qr digər narkotik vasitələr, 126 kq 344,6 qr psixotrop maddələr), habelə 880,6 qr güclü təsir edən maddə, 13 ədəd xaş-xaş bitkisi çıxarılmış və 18.937 ədəd çətənə bitkisi müəyyən edilərək müvafiq tədbirlər görülməsi üçün istintaq orqanlarına verilmişdir





Bununla yanaşı, Nazirlik tərəfindən 768,5 hektar sahədə yaş kütləsi 294 ton 446 kq 100 qr olan 2.986.052 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkisi müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən aşkar edilmiş 95 fakt üzrə qanunsuz dövriyyədən 1 ton 784 kq 937,017 qr narkotik vasitə və psixotrop maddə (1 ton 235 kq 573,89 qr marixuana, 451 kq 011,976 qr heroin, 211,12 qr tiryək, 153,551 qr kokain, 86 kq 522,342 qr həşiş, 583,721 qr metadon narkotik vasitə, 10 kq 880,417 qr psixotrop maddə, 2 kq 802 qram və 533 ədəd güclü təsir edən maddə) çıxarılmışdır.










Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aşkar edilmiş 4 fakt üzrə qanunsuz dövriyyədən 89 kq 835 qr və 2520 ədəd həb metadon narkotik vasitə və psixotrop maddə (81 kq 400 qr marixuana, 5 kq 175 qr heroin və 3 kq 220 qr psixotrop maddə) müsadirə edilmişdir.





Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən aşkar edilmiş 100 fakt üzrə qanunsuz dövriyyədən 1 ton 416 kq  683,94 qr və 12.696 ədəd həb metadon narkotik vasitə və psixotrop maddə (1 ton 361 kq 602,85 qr marixuana, 11 kq 869,338 qr heroin, 15 kq 162,092 qr tiryək, 5 kq 690 qr həşiş, 7 kq 046,08 qr digər narkotik vasitə və 15 kq 295,58 qr psixotrop maddələr), eyni zamanda 13.194 ədəd həb, 39 kapsul və 5,7 qr güclü təsir edən maddə çıxarılmışdır.






Bununla  yanaşı, Xidmət tərəfindən 11,4 hektar sahədə yaş kütləsi 24 ton 585 kq olan 68.485 ədəd yabanı halda bitmiş narkotik xassəli çətənə və xaş-xaş bitkiləri müəyyən edilərək müvafiq qaydada məhv edilmişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən aşkar edilmiş 31 fakt üzrə qanunsuz dövriyyədən çəkisi 90,2 qr narkotik vasitə və psixotrop maddə (19,7 qr heroin, 35 qr marixuana, 0,3 qr digərləri, 35,2 qr psixotrop maddə) çıxarılmışdır.







## 2025-ci ildə ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin növü və çəkisi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 8.376 ekspert rəyi və arayış verilmişdir.

| № | Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları | Sayı | Çəkisi |
|---|---|---|---|
| 1. | Marixuana | 2848 | 7 t 952 kq 88,339 qram |
| 2. | Həşiş qatranı | 21 | 217 kq 927,364 qram |
| 3. | Çətənə (kannabis) | 253 | 1 t 818 kq 336,464 qram |
| 4. | Xaşxaş bitkisi | 2 | 605 qram |
| 5. | Sintetik kannabinoidlər (spice) | 1 | 0,037 qram |
| 6. | Heroin | 1163 | 657 kq 225,076 qram |
| 7. | Tiryak | 129 | 102 kq 187,343 qram |
| 8. | Metadon | 286 | 5 kq 356,579 qram |
| 9. | Metamfetamin | 3320 | 180 kq 610,384 qram |
| 10. | Kokain | 5 | 1 kq 15,295 qram |
| 11. | MDA, MDMA (ekstazi) | 13 | 111,435 qram |
| 12. | Zəhərli maddə | 3 | 2 kq 503,574 qram |
| 13. | Prekursor | 20 | 216,678 qram |
| 14. | Farmpreparatlar:<br>- psixotrop və güclü təsir edən d.p.<br>- digər dərman preparatları | 128<br>17 | psixotrop: 9,13 qram<br>GTE: 4 kq 541,645 qram |
| 15. | Digər maddələr | 158 | müvafiq siyahılara daxil olmadığı üçün çəkisi üzrə qeydiyyat aparılmamışdır |

**Qeyd: Ekspertiza olunan narkotik vasitələrin və psixotrop maddələrin sayı, növü, miqdarı və çəkisi barədə digər məlumatlar Daxili İşlər Nazirliyinin müvafiq qurumu tərəfindən ekspertizadan keçirilmişdir.**

Hesabat ilində Baş Prokurorluq tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə aidiyyəti istintaq və əməliyyat qurumları ilə qarşılıqlı fəaliyyət təmin edilmiş və işçi qaydada mütəmadi görüşlər keçirilmiş, müvafiq qanunvericilik aktlarına əlavə və dəyişikliklərə dair təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Eyni zamanda, Prokurorluğun Kollegiyasının müvafiq qərarı ilə “Prokurorluq orqanlarının 2026-cı ildə ictimaiyyətin maarifləndirilməsinə dair” Yol Xəritəsinin 5-ci bəndinə əsasən “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə əlaqədar” adlı mövzuya müvafiq olaraq “Təhsil müəssisələrində tədris məqsədilə “Təmiz gələcək- #YoxDe” adlı proqramların təşkili” məzmunlu tədbirlərin keçirilməsi, videoçarx, rəqəmsal məzmun və çap materialı formatında materialların hazırlanması nəzərdə tutulmuşdur.





Ötən ilin 29 və 30 may tarixlərində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2.334 məhkəmə qərarı əsasında 4 ton 953 kq 469,931 qr, 95.332 ədəd metadon həbi müxtəlif növ narkotik vasitə və psixotrop maddə (4183 ədəd həb), 24,947 qr, 33066 ədəd həb, 79344 ədəd kapsul, 695 flakon, 163 konvalyut, 1228 list güclü təsir edən maddə, o cümlədən 8.579 ədəd narkotik xassəli çətənə bitkisi yandırma yolu ilə məhv edilmişdir.





Eyni zamanda 2025-ci il 28 yanvar tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müraciəti əsasında Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə cinayət işləri üzrə qəbul olunan 24 qərar əsasında məhv edilməsi nəzərdə tutulan cinayət işləri üzrə maddi sübut kimi tanınmış xüsusilə külli miqdarda olan 5 ton 168 kq 332,011 qr müxtəlif növ narkotik vasitə yandırma yolu ilə məhv edilmişdir.









Həmçinin, 3.235 məhkəmə qərarı üzrə 73 rayon və şəhərdə az və xeyli miqdarda müsadirə edilmiş 85 kq 231,856 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə, eləcə də 755 ədəd çətənə bitkisi rayon və şəhər komissiyaları tərəfindən müvafiq qaydada məhv edilmişdir.









## Narkotik vasitələrin və psixotrop maddələrin mövcud "qara bazar" qiymətləri

| Narkotik vasitələrin 1 kq dəyəri AZN ilə (minimum/maksimum) | | | |
|---|---|---|---|
| | | 01.01.2026-cı il tarixə olan vəziyyət | |
| | | minumum | maksimum |
| **Topdan** | Tiryək | 6000 | 7500 |
| | Heroin | 20000 | 25000 |
| | Marixuana | 6000 | 12000 |
| | Həşiş | 3500 | 4000 |
| | Kokain | 250000 | 300000 |
| | Metamfetamin | 22000 | 25000 |
| **Pərakəndə** | Tiryək | 1200 | 17000 |
| | Heroin | 40000 | 60000 |
| | Marixuana | 15000 | 30000 |
| | Həşiş | 7000 | 8000 |
| | Kokain | 340000 | 400000 |
| | Metamfetamin | 40000 | 60000 |

Hesabat ilində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 779,9 hektar sahədə çəkisi 319 ton 031 kq 100 qr olan 3.054.537 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitki müəyyən olunaraq məhv edilmişdir.









Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 5750 nəfər cəlb edilmiş, onlardan 17-18 yaş 17 nəfər, 18-25 yaş 372 nəfər, 26-29 yaş 835 nəfər, 30 yaş və ondan yuxarı isə 4526 nəfər təşkil edir. Həmin şəxslərdən 5576-sı kişi, 174-ü qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 90 nəfəri xarici ölkə vətəndaşıdır.

**2025-ci il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər**



## 2024/2025-ci illər ərzində cinayət məsuliyyətinə cəlb olunanlar barədə müqayisəli məlumat

| | | 2024 | 2025 | Fərq |
|---|---|---|---|---|
| 1. | Cəmi | 7316 | 5750 | -1566 |
| 2. | 16-18 yaşadək | 4 | 17 | +13 |
| 3. | 18-25 yaşadək | 539 | 372 | -167 |
| 4. | 26-29 yaşadək | 1088 | 835 | -253 |
| 5. | 30 yaş və ondan yuxarı | 5685 | 4526 | -1159 |
| 6. | İşləməyən və oxumayan | 4972 | 3447 | -1525 |
| 7. | Xarici ölkə vətəndaşları | 71 | 90 | +19 |
| 8. | Qadınlar | 231 | 174 | -57 |
| 9. | Kişilər | 7085 | 5576 | -1509 |
| 10. | Əvvəllər cinayət törətmişlər | 2633 | 2026 | -607 |
| 11. | Əvvəllər xüsusi qeydiyyatda olmuşlar | 28 | 14 | -14 |

Məsuliyyətə cəlb edilmiş 90 xarici ölkə vətəndaşından 33-ü İran İslam Respublikası, 27-si Rusiya, 21-i Türkiyə, 4-ü Gürcüstan, 2-si Ukrayna, 1-i ABŞ, 1-i Türkmənistan, 1-i Qazaxıstan vətəndaşı olmuşdur. Xarici ölkə vətəndaşlarından ümumilikdə 247 kq 012,371 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülmüşdür.




Hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 263 fakt aşkar edilmiş (DİN-64, DGK-95, DSX-100, DTX-4) qanunsuz dövriyyədən ümumi çəkisi 4 ton 069 kq 603,49 qr olan narkotik vasitə və psixotrop maddə, 15.216 ədəd metadon həbi, 13.194 ədəd və 5,7 qr güclü təsir edən maddə (DİN-775 kq 138,1 qr, DGK-1 ton 784 kq 946,45 qr, DSX-1 ton 419 kq 683,94 qr, DTX-89 kq 835 qr) çıxarılmışdır.

| 2025-ci il | Qaçaqmalçılıq yolu ilə aşkar edilmiş faktlar | Qrup halında aşkar edilmiş faktlar |
|---|---|---|
| Daxili İşlər Nazirliyi | 64 fakt | 283 fakt |
| Dövlət Gömrük Komitəsi | 95 fakt | 5 fakt |
| Dövlət Sərhəd Xidməti | 100 fakt | 20 fakt |
| Dövlət Təhlükəsizliyi Xidməti | 4 fakt | 2 fakt |
| Cəmi | 263 fakt | 310 fakt |

Aşkar edilmiş cinayətlərin 310-u qrup halında (DİN-283, DGK-5, DSX-20, DTX-2) törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 2 ton 941 kq 720,17 qr narkotik vasitə, psixotrop maddə və 5,7 qr güclü təsir edən maddə çıxarılmışdır (DİN-2 ton 643 kq 102,6 qr, DGK-4 kq 858 qr, DSX-262 kq 539,57 qr, DTX-31 kq 220 qr).

**2024/2025-ci illər ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar və qanunsuz dövriyyədən götürülən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları barədə müqayisəli məlumat**

| | 2024-cü il | 2025-ci il | Fakt | %-lə |
|---|---|---|---|---|
| **Cəmi** | 8871 | 7763 | -1108 | -12,5 |
| **Satış** | 2997 | 2613 | -384 | -12,8 |
| **Saxlama** | 5639 | 4959 | -680 | -12,1 |
| **Əkin** | 229 | 187 | -42 | -18,4 |
| **Digərləri** | 6 | 4 | -2 | -33,3 |

Təhlil göstərir ki, ötən il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 2024-cü illə müqayisədə 1.108, qanunsuz satışı faktlarının sayı 384, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılma faktlarının sayı 680, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi faktlarının sayı 42, bu kateqoriyadan olan digər cinayətlərin sayı 2, qrup halında olan cinayətlərin sayı 31, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 1.566, yabanı halda müəyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 139 ton 772 kq azalmışdır.

Narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi faktlarının sayı 1 vahid, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 2 ton 260 kq 410,052 qr, o cümlədən xarici ölkə vətəndaşlarının sayı 19 nəfər artmışdır.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 7 ton 669 kq 612,24 qr-nı (84,3%) marixuana təşkil etmişdir. Onun da 6 ton 451 kq 050,703 qramı (84,1%) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olmuşdur. 1 ton 218 kq 561,537 qramı (15,8%) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, həyətyani sahələrdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmişdir.

Qanunsuz dövriyyədən çıxarılmış 9 ton 093 kq 290,457 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə "qara bazar" dəyəri 235 milyon 950 min AZN kimi qiymətləndirilir.



Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi barədə şəhər və rayonlar üzrə ayrı-ayrılıqda əldə olunan statistik məlumatlara dair interaktiv xəritənin maddi-texniki bazasının gücləndirilməsi davam etdirilmişdir.




Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunda 2025-ci ilə dair hazırlanmış interaktiv xəritə üzrə əldə olunan statistik məlumatlar göstərir ki:

**Bakı iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 3781 fakt aşkar edilmiş və 2024-cü illə müqayisədə cinayət faktlarının sayı 15% azalmış;
- qanunsuz dövriyyədən 2 ton 686 kq-dan artıq müxtəlif növ narkotik vasitə müsadirə edilmiş və 2024-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psixotrop maddələrin miqdarı 1 ton 473 kq çox olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 2377 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2024-cü illə müqayisədə 863 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 13686 nəfərdir.

**Abşeron-Xızı iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 993 fakt aşkar edilmiş və 2024-cü illə müqayisədə cinayət faktlarının sayı 5% azalmış;
- qanunsuz dövriyyədən 675 kq-dan artıq müxtəlif növ narkotik vasitə götürülmüş və 2024-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psxiotrop maddələrin həcmi 291 kq çox olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 802 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2024-cü illə müqayisədə 194 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 114 nəfərdir.




**Lənkəran-Astara iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 402 fakt aşkar edilmiş və 2024-cü illə müqayisədə cinayət faktlarının sayı 28% azalmış;
- qanunsuz dövriyyədən 3 ton 317 kq-dan artıq müxtəlif növ narkotik vasitə çıxarılmış və 2024-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psixotrop maddələrin miqdarı 1 ton 397 kq-dan çox olmuş;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 381 nəfər cinayət məsuliyyətinə cəlb olunmuş və 2024-cü illə müqayisədə 132 nəfər azalmış;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 5406 nəfərdir.

**Şirvan-Salyan iqtisadi rayonu üzrə:**

- narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı ümumilikdə 393 fakt aşkar edilmiş və 2024-cü illə müqayisədə cinayət faktlarının sayı 20% azalmış;
- qanunsuz dövriyyədən 435 kq-dan artıq müxtəlif növ narkotik vasitə götürülmüş və 2024-cü illə müqayisədə müsadirə edilən narkotiklərin və psixotrop maddələrin həcmi 16 kq-dan az olmuş;
- narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 3806 nəfərdir.



2025-ci il ərzində hüquq mühafizə orqanları və Səhiyyə Nazirliyi tərəfindən təqdim olunmuş məlumatlar əsasında şəhər və rayonlar üzrə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı qeydə alınan cinayət faktları, həmin faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələr, narkotiklərlə bağlı məsuliyyətə cəlb edilən şəxslər, narkotik istifadəçiləri və 1000 nəfərə düşən narkomanların sayı barədə;

| Rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkomanların sayı |
|---|---|---|---|---|---|
| **Binəqədi** | 114 fakt | 317 kq 715,9 qr | 56 nəfər | 1510 nəfər | 4,8 nəfər |
| **Xətai** | 335 fakt | 190 kq 756 qr | 187 nəfər | 1172 nəfər | 4,2 nəfər |
| **Xəzər** | 185 fakt | 179 kq 135,7 qr | 165 nəfər | 1180 nəfər | 5,7 nəfər |
| **Qaradağ** | 227 fakt | 376 kq 467,7 qr | 103 nəfər | 697 nəfər | 5,8 nəfər |
| **Nərimanov** | 257 fakt | 209 kq 261,7 qr | 204 nəfər | 713 nəfər | 3,9 nəfər |
| **Nəsimi** | 364 fakt | 193 kq 671 qr | 316 nəfər | 1226 nəfər | 5,5 nəfər |
| **Nizami** | 333 fakt | 233 kq 293,3 qr | 282 nəfər | 791 nəfər | 4,2 nəfər |
| **Pirallahı** | 21 fakt | 51 kq 146,1 qr | 20 nəfər | 104 nəfər | 5,5 nəfər |
| **Sabunçu** | 410 fakt | 373 kq 535,3 qr | 268 nəfər | 2079 nəfər | 6,2 nəfər |
| **Səbail** | 249 fakt | 119 kq 305,3 qr | 155 nəfər | 510 nəfər | 4,9 nəfər |
| **Suraxanı** | 755 fakt | 254 kq 731,6 qr | 356 nəfər | 1659 nəfər | 7,9 nəfər |
| **Yasamal** | 531 fakt | 187 kq 402 qr | 265 nəfər | 2045 nəfər | 10,5 nəfər |
| **Cəmi** | **3781 fakt** | **2 ton 686 kq 421,6 qr** | **2377 nəfər** | **13686 nəfər** | |

| Şəhər və rayonlar | Cinayət faktları | Narkotik vasitələr və psixotrop maddələr | Cinayət məsuliyyətinə cəlb olunanlar | Narkotik istifadəçiləri | 1000 nəfərə düşən narkoman- |
|---|---|---|---|---|---|
| **Lənkəran** | 102 fakt | 193 kq 757,8 qr | 66 nəfər | 3139 nəfər | 13,7 nəfər |
| **Şirvan** | 91 fakt | 24 kq 587,6 qr | 82 nəfər | 1450 nəfər | 16,8 nəfər |
| **Salyan** | 79 fakt | 133 kq 556,1 qr | 67 nəfər | 1334 nəfər | 9,4 nəfər |
| **Sumqayıt** | 613 fakt | 246 kq 633,9 qr | 457 nəfər | 3937 nəfər | 9,1 nəfər |
| **Astara** | 95 fakt | 2 ton 191 kq 906,7 qr | 95 nəfər | 467 nəfər | 4,1 nəfər |
| **Yevlax** | 108 fakt | 69 kq 209,9 qr | 90 nəfər | 883 nəfər | 6,7 nəfər |
| **Abşeron** | 345 fakt | 359 kq 710 qr2 qr | 320 nəfər | 1410 nəfər | 3,2 nəfər |
| **Biləsuvar** | 81 fakt | 217 kq 987,1 qr | 71 nəfər | 270 nəfər | 2,4 nəfər |
| **Gəncə** | 282 fakt | 126 kq 244,6 qr | 191 nəfər | 1414 nəfər | 4,2 nəfər |
| **Cəlilabad** | 70 fakt | 381 kq 143,8 qr | 59 nəfər | 899 nəfər | 4 nəfər |
| **Sabirabad** | 82 fakt | 51 kq 788,7 qr | 80 nəfər | 743 nəfər | 3,6 nəfər |
| **Xaçmaz** | 76 fakt | 56 kq 037 qr | 73 nəfər | 806 nəfər | 4,5 nəfər |

| Şəhər və rayonlar | | Qeydiyyatda olan narkotik istifadəçiləri | | |
|---|---|---|---|---|
| | | 2024 | 2025 | Fərq |
| 1. | Bakı şəhəri | 12850 | 13686 | +836 |
| 2. | Sumqayıt şəhəri | 3891 | 3937 | +46 |
| 3. | Lənkəran şəhəri | 3065 | 3139 | +74 |
| 4. | Salyan rayonu | 1302 | 1334 | +32 |
| 5. | Gəncə şəhəri | 1354 | 1414 | +60 |
| 6. | Şirvan şəhəri | 1379 | 1450 | +71 |
| 7. | Abşeron rayonu | 1356 | 1410 | +54 |
| 8. | Cəlilabad rayonu | 875 | 899 | +24 |
| 9. | Yevlax şəhəri | 844 | 883 | +39 |
| 10. | Digər şəhər və rayonlar | 13574 | 14472 | +898 |
| Cəmi | | 40490 | 42624 | +2134 |

## 2019-2025-ci illər ərzində hüquq mühafizə orqanları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri

2019-2025-ci illər ərzində Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti tərəfindən ümumilikdə 42 ton 712 kq 727 qr müxtəlif növ narkotik vasitələr qanunsuz dövriyyədən çıxarılmışdır.

## 2019-2025-ci illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr



Son 7 il ərzində müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin 13 ton 483 kq 697 qr-nı heroin (31,6%), 6 kq 799 qr-nı kokain (0,01%), 22 ton 685 kq 297 qr-nı marixuana (53,1%), 2 ton 352 kq 684 qr-nı tiryək (5,5%), 489 kq 433 qr-nı həşiş (1,1%), 3 ton 595 kq 080 qr-nı psixotrop maddələr və digərləri (8,4%) təşkil etmişdir.

## 2019-2025-ci illər ərzində hüquq-mühafizə orqanları tərəfindən qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələr və psixotrop maddələr




Ümumilikdə hesabat dövrü ərzində (2019-2025) hüquq mühafizə orqanları tərəfindən 55626 fakt aşkarlanmış, onlardan 19071-i (34,3%) narkotik vasitələrin və psixotrop maddələrin satışı, 34107-si (61,3%) narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz əldə edilib saxlanılması, 2064-ü (3,7%) qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 384-i (0,7%) isə digərləri olmuşdur.

## 2019-2025-ci illər ərzində narkotik vasitələrlə bağlı qeydiyyata alınmış cinayət faktları



Qeyd olunan illər ərzində cinayət məsuliyyətinə 44752 nəfər cəlb olunub. Onlardan 43554 nəfəri kişi, 1198 nəfəri isə qadındır. Cinayət məsuliyyətinə cəlb olunanların 604 nəfəri xarici ölkə vətəndaşı olmuşdur.

| İllər | 16-18 yaş | 18-30 yaş | 30 yaşdan yuxarı | Qadınlar | Xarici ölkə vətəndaşları | Cəmi |
|---|---|---|---|---|---|---|
| 2019 | 14 nəfər | 817 nəfər | 2656 nəfər | 98 nəfər | 99 nəfər | 3487 nəfər |
| 2020 | 5 nəfər | 1059 nəfər | 3169 nəfər | 83 nəfər | 75 nəfər | 4233 nəfər |
| 2021 | 11 nəfər | 1595 nəfər | 4906 nəfər | 136 nəfər | 70 nəfər | 6512 nəfər |
| 2022 | 13 nəfər | 2040 nəfər | 6624 nəfər | 231 nəfər | 99 nəfər | 8677 nəfər |
| 2023 | 16 nəfər | 1893 nəfər | 6868 nəfər | 245 nəfər | 100 nəfər | 8777 nəfər |
| 2024 | 4 nəfər | 1627 nəfər | 5685 nəfər | 231 nəfər | 71 nəfər | 7316 nəfər |
| 2025 | 17 nəfər | 1207 nəfər | 4526 nəfər | 174 nəfər | 90 nəfər | 5750 nəfər |
| **Cəmi** | **63 nəfər** | **10238 nəfər** | **29908 nəfər** | **1198 nəfər** | **604 nəfər** | **44752 nəfər** |

2019-2025-ci illər ərzində 27057 məhkəmə hökmü və qərarları əsasında ümumilikdə 24,6 ton müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, eləcə də 165625 ədəd narkotik tərkibli çətənə bitkisi müvafiq komissiyalar tərəfindən yandırma üsulu ilə məhv edilmişdir.



# DÜNYADA NARKOTİKLƏRLƏ BAĞLI VƏZİYYƏTƏ DAİR TƏHLİL



Narkotik vasitələrin qanunsuz istehsalı, dövriyyəsi və istifadəsi 2025-ci ildə də beynəlxalq təhlükəsizlik, ictimai sağlamlıq və sosial sabitlik üçün əsas təhdidlərdən biri olaraq qalmaqda davam etmişdir. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (BMTNCİ) və Beynəlxalq Narkotiklərə Nəzarət Şurasının (BNNŞ) 2025-ci il üzrə hesabatlarına əsasən, qlobal narkotik bazarı daha mürəkkəb, çevik və texnoloji baxımdan inkişaf etmiş xarakter almışdır. Belə ki, müasir narkotik problemi artıq yalnız son məhsulların istehsalı və daşınması ilə məhdudlaşmır, həmçinin prekursorlar, gizli laboratoriyalar, istehsal avadanlıqları, poçt və hava daşımaları, onlayn platformalar, sosial media və real vaxt məlumat mübadiləsi sistemləri də bu prosesin ayrılmaz hissəsinə çevrilmişdir.

Cənubi Amerika 2025-ci ildə də kokain istehsalının əsas mənbəyi olaraq qalmışdır. Afrika, xüsusilə Qərbi və Mərkəzi Afrika istiqaməti getdikcə daha çox tranzit və genişlənən istehlak məkanı kimi ön plana çıxmışdır. Bu, qlobal kokain dövriyyəsinin əvvəlki dövrlərlə müqayisədə daha şaxələnmiş marşrutlar üzrə hərəkət etdiyinin göstəricisidir.

Kokain bazarının genişlənməsi, yeni tranzit marşrutlarının formalaşması və Afrika ilə Asiya istiqamətlərində artan aktivlik də əsas meyllər sırasında göstərilir. Eyni zamanda qlobal narkotik problemi artıq təkcə istehsal və müsadirə məsələsi kimi deyil, həm də təchizat zənciri, logistika, rəqəmsal vasitəçilik və kimyəvi nəzarət məsələlərinin birləşdiyi çoxşaxəli təhlükəsizlik çağırışı kimi qiymətləndirilir.

Cənub-Şərqi Asiya sintetik narkotiklərin, xüsusilə metamfetamin və digər sintetik stimulyatorların istehsalı baxımından əsas bölgələrdən biri olaraq qalmışdır. İstehsalın davam etməsi, eləcə də ketamin və əlaqəli maddələrin dövriyyəsinin genişlənməsi bu regionun həm istehsal, həm də logistika baxımından mühüm rol oynadığını göstərir. Bununla yanaşı, Myanma opium istehsalında əsas ölkələrdən biri olaraq qalmaqdadır.



2025-ci ildə qlobal narkotik bazarında ən mühüm meyllərdən biri sintetik narkotiklərin sürətli artımıdır. Narkotik bazarı artıq daha çevik istehsal modellərinə, daha geniş logistika kanallarına və nəzarətdən yayınmağa imkan verən daha mürəkkəb dövriyyə formalarına keçmişdir.

Hesabatlara əsasən, 2025-ci ildə yüksək təsir gücünə malik sintetik opioidlər, o cümlədən nitazenlər və fentanil qrupuna aid maddələr əsas risk mənbələri sırasında göstərilir. Bu maddələrin dövriyyəsinin genişlənməsi onların daha yüksək zəhərlənmə və ölüm riski yaratması ilə əlaqələndirilir.

Qərbi və Mərkəzi Afrikada “kush” kimi qarışıq məhsulların sürətlə yayılması da ayrıca risk sahəsi kimi qiymətləndirilir. Həmin məhsullarda nitazenlər və sintetik kannabinoidlərin ola biləcəyi, eyni zamanda tramadolun qeyri-tibbi istifadəsinin region üçün mühüm problem olaraq qaldığı vurğulanır. Müxtəlif regionlarda ketamin və preqabalin üzrə qeyri-tibbi istifadə hallarının artması da ümumi mənzərənin daha mürəkkəb xarakter aldığınının göstəricisidir.

Beynəlxalq Narkotiklərə Nəzarət Şurası (BNNŞ) narkotik maddələrin qanunsuz istehsalının qarşısının alınması məqsədilə bir sıra beynəlxalq onlayn nəzarət sistemlərini işə salmışdır.



Bu sistemlər sırasında 2025-ci ildə narkotiklərlə mübarizənin ən strateji istiqamətlərindən birinə çevrilmiş prekursorlara nəzarət üzrə PEN Online sistemi (İxracdan əvvəl Bildiriş Sistemi) xüsusi yer tutur. 2006-cı ildə istifadəyə verilən bu platforma ixracatçı və idxalçı ölkələrin səlahiyyətli milli orqanlarına narkotik istehsalında istifadə edilən prekursorların 1988-ci il Konvensiyasının 12-ci bəndinə uyğun olaraq beynəlxalq ticarətini real vaxt rejimində izləməyə imkan verir. 1 noyabr 2024-cü ildən 1 noyabr 2025-ci ilədək sistem vasitəsilə 63 ixracatçı ölkə tərəfindən 192 idxalçı ölkə və əraziyə 34 mindən çox əvvəlcədən ixrac bildirişi göndərilmişdir.

PEN Online Light sistemi beynəlxalq nəzarət altında olmayan, lakin qeyri-qanuni narkotik istehsalında istifadə oluna bilən alternativ və əvəzedici kimyəvi maddələrin planlaşdırılan ixracı barədə könüllü məlumat mübadiləsi üçün yaradılmışdır. BNNŞ-nin ümumi hesabatına əsasən PEN Online Light vasitəsilə 74 ölkəni əhatə edən təxminən 185 min ton və 250 milyon litrdən çox həcmdə nəzarət altında olmayan prekursorlar üzrə izləmə aparıldığı göstərilir. Həmin mexanizmlərdən istifadə nəticəsində 2025-ci ildə 3 ton 1-boc-4-piperidone adlı fentanil prekursorunun qanunsuz dövriyyəyə yönəldilməsinin qarşısı alınmışdır.

Bununla yanaşı, BNNŞ-nin GRIDS Proqramı (Təhlükəli Maddələrin Qlobal Sürətli Müsadirəsi Proqramı) çərçivəsində hüquq-mühafizə orqanları arasında real vaxt rejimində məlumat mübadiləsini təmin edən bir sıra ixtisaslaşmış alətlər fəaliyyət göstərir. Bu proqram əsasən beynəlxalq nəzarət altına alınmamış yeni psixoaktiv maddələrə və qeyri-tibbi sintetik opioidlərə qarşı mübarizəyə yönəldilmişdir. Proqram çərçivəsində 115 ekspert görüşü və təlim təşkil edilmiş, 880-dən çox agentliyin imkanları artırılmışdır.

GRIDS Proqramının tərkibinə daxil olan IONICS (Project Ion Incident Communication System) yeni psixoaktiv maddələr və beynəlxalq nəzarət altında olmayan kimyəvi maddələrlə bağlı insidentlərin ölkələr arasında real vaxt rejimində mübadiləsini təmin edir. Sistem vasitəsilə 125,000-dən çox müsadirə və 3 milyondan artıq "trafficking signal" paylaşılmışdır.

PICS (Precursors Incident Communication System) prekursorlarla bağlı qeyri-qanuni fəaliyyətlər barədə ölkələr arasında təhlükəsiz məlumat mübadiləsini həyata keçirir. 1 noyabr 2025-ci il tarixinədək bu sistem vasitəsilə 85-dən çox ölkədə baş vermiş, 350-dən çox maddəni və 231 avadanlıqla bağlı hadisəni əhatə edən 5,700-dən artıq insident paylaşılmışdır. Yalnız 1 noyabr 2024-cü ildən 1 noyabr 2025-ci ilədək 968 yeni insident və 1,900-dən çox kommunikasiya qeydə alınmış, bu da əvvəlki dövrlə müqayisədə təxminən 100% artım deməkdir.

Avropa İttifaqı çərçivəsində Yeni Psixoaktiv Maddələr (NPS) üzrə Erkən Xəbərdarlıq Sistemi (EU Early Warning System on NPS) mexanizmi mühüm praktik nümunə təqdim edir.

EUDA-nın məlumatına görə, Aİ-nin milli erkən xəbərdarlıq sistemləri, EUDA, Europol və Avropa Komissiyası arasında çoxsahəli şəbəkə kimi fəaliyyət göstərir və məqsədi NPS-nin mümkün qədər tez aşkar olunması, ilkin qiymətləndirilməsi və onlara cavab tədbirlərinin koordinasiyasıdır.

EUDA-nın rəsmi məlumatına görə, 2024-cü ildə 47 yeni maddə müəyyən edilmiş, bunların arasında yeni nitazen opioidləri və yarı-sintetik kannabinoidlər də olmuşdur. 2025-ci ilin noyabrında EUDA daha geniş mandatlı European Drug Alert System (EDAS) mexanizmini

istifadəyə verərək erkən xəbərdarlıq yanaşmasını təkcə NPS-lərlə məhdudlaşdırmamış, bütün narkotiklərlə bağlı ciddi sağlamlıq, sosial, təhlükəsizlik və ictimai asayiş risklərini də əhatə edən daha geniş çərçivəyə keçmişdir.

2025-ci ildə narkotik dövriyyəsinin ən sürətlə dəyişən istiqamətlərindən biri rəqəmsal mühit olmuşdur. Onlayn satış platformaları, şifrələnmiş mesajlaşma tətbiqləri, sosial media, kriptovalyutalar və “dead-drop” üsulları narkotik vasitələrin satışı və ödənişində daha geniş istifadə edilmişdir. Beynəlxalq qiymətləndirmələr göstərir ki, narkotik ticarəti artıq yalnız “darknet” bazarları ilə məhdudlaşmır, açıq platformalarda gizlədilmiş elanlar, vasitəçi çat xidmətləri və parçalanmış ödəniş mexanizmləri vasitəsilə daha çevik modelə keçmişdir.

2025-ci ilin ilk 10 ayı ərzində yalnız bir məhsul kateqoriyası üzrə 3.912 onlayn satış təklifi aşkarlanmışdır ki, bu da narkotik bazarının açıq platformalara doğru sürətlə keçdiyini göstərmişdir.

Beləliklə, 2025-ci ildə qlobal narkotik vəziyyəti daha mürəkkəb və texnoloji baxımdan daha inkişaf etmiş xarakter almışdır. Ənənəvi bitki mənşəli narkotiklər, xüsusilə kokain və opiatlar bazarda mühüm yer tutmağa davam etsə də, əsas strateji dəyişiklik sintetik narkotiklərin, prekursorların, rəqəmsal ticarət kanallarının və texnoloji vasitəçilik formalarının sürətli genişlənməsi ilə bağlı olmuşdur.

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 96.837 nəfər istiqamətləndirilmişdir. Onlardan, narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 5.596 nəfərindən 51,9 faizinin və ya 2.905-nin istifadəçi olması müəyyən edilərək zəruri tədbirlərin görülməsi təmin edilmiş və hesabat dövründə 3.842 nəfər stasionar müalicədə olmuşdur. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 718 xəstə müalicə alır.




Səhiyyə Nazirliyi tərəfindən 2023-cü ildə qəbul olunmuş yeni statistik hesabat formasına uyğun təqdim edilmiş məlumata əsasən respublika üzrə narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 2025-ci il 31 dekabr tarixə 42.624 nəfər təşkil etmişdir. Onlardan 19.877 nəfəri opioidlərin, 9.362 nəfəri kannabioidlərin, 13.385 nəfəri isə bir neçə narkotik maddəni eyni zamanda qəbul etməsi nəticəsində psikası və davranışı pozulmuş şəxslər, o cümlədən 1.093 nəfəri qadındır. Hesabat ilində dispanser nəzarətinə müvafiq diaqnozla 2.679 nəfər götürülmüş və 545 nəfər nəzarətdən çıxarılmışdır.

## Dispanser nəzarətdə və profilaktik qeydiyyatda olanlar

| Məlumatlar | Ümumi say | Dispanser qeydiyyatında olanlar | Profilaktik qeydiyyatında olanlar | Anonimlər |
|---|---|---|---|---|
| Narkomanların ümumi sayı | 42624 | 42624 | 8895 | 118 |
| Qadınların ümumi sayı | 1093 | 1093 | 204 | - |
| Toksikomanların sayı | 3090 | 3090 | 739 | - |
| Eyni zamanda bir neçə narkotik maddə qəbul edənlərin sayı | 13385 | 13385 | - | - |
| Qeydiyyata götürülənlərin sayı | 2679 | 2679 | 2669 | - |
| Qeydiyyatdan çıxarılanların sayı | 545 | 545 | 1112 | - |

## Respublika Narkoloji Mərkəzdə qeydiyyatda olan narkomanlar




## Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları



| Qeydiyyatda olan narkotik istifadəçilərin yaş qrupları | | | |
|---|---|---|---|
| Yaş qrupları | Ümumi say | Dispanser qeydiyyatında olan | Profilaktik qeydiyyatında olan |
| 15-17 yaş | 17 | 17 | 19 |
| 18-24 yaş | 3309 | 3309 | 1002 |
| 25-29 yaş | 6983 | 6983 | 1543 |
| 30-34 yaş | 7952 | 7952 | 1756 |
| 35-39 yaş | 7185 | 7185 | 1465 |
| 40-44 yaş | 5776 | 5776 | 1164 |
| 45-49 yaş | 4734 | 4734 | 773 |
| 50-54 yaş | 3769 | 3769 | 556 |
| 55-59 yaş | 1819 | 1819 | 403 |
| 60-64 yaş | 846 | 846 | 163 |
| 65 yaş və yuxarı | 234 | 234 | 48 |

| Rayon və şəhərlər üzrə qeydiyyatda olan narkotik istifadəçilərinin sayı və onların qəbul etdiyi narkotik vasitələrin növü | | | | | |
|---|---|---|---|---|---|
| Şəhər və rayonlar | | Qeydiyyatda olan narkotik istifadəçiləri | Opioid qrupuna aid narkotik istifadəçiləri | Kannabinoid qrupuna aid narkotik istifadəçiləri | Eyni zamanda bir neçə narkotik maddənin qəbulu |
| 1 | Bakı şəhəri | 13686 | 5985 | 1410 | 6291 |
| 2 | Sumqayıt şəhəri | 3937 | 1908 | 827 | 1202 |
| 3 | Lənkəran şəhəri | 3139 | 2286 | 457 | 396 |
| 4 | Şirvan şəhəri | 1450 | 668 | 458 | 321 |
| 5 | Abşeron rayonu | 1414 | 557 | 469 | 246 |
| 6 | Gəncə şəhəri | 1410 | 558 | 293 | 559 |
| 7 | Salyan rayonu | 1334 | 658 | 448 | 228 |
| 8 | Cəlilabad rayonu | 899 | 625 | 180 | 94 |
| 9 | Yevlax şəhəri | 883 | 446 | 229 | 208 |
| 10 | Digər şəhər və rayonlar | 14472 | 6041 | 4591 | 3840 |
| 11 | Cəmi | 42624 | 19877 | 9362 | 13385 |

# NARKOTİK ASILILIĞI OLAN ŞƏXSLƏRİN MÜƏYYƏN EDİLMƏSİ VƏ MÜALİCƏSİ, BU SAHƏDƏ APARILAN TƏDQİQATLAR

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə tibbi ekspertiza və pataloji anatomiya birliyi publik hüquqi şəxsinin verdiyi rəsmi məlumata əsasən narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 2016-cı il üzrə 39 nəfər, 2017-ci il üzrə 58 nəfər, 2018-ci il üzrə 90 nəfər, 2019-cu il üzrə 126 nəfər, 2020-ci il üzrə 160 nəfər, 2021-ci il üzrə 258 nəfər, 2022-ci il üzrə 249 nəfər, 2023-cü il üzrə 172 nəfər, 2024-cü il üzrə 87 nəfər təşkil etmişdir.

2025-ci il ərzində narkotik vasitələrdən aşırı doza nəticəsində 7-si qadın, 91-i kişi olmaqla ümumilikdə 98 nəfər (yanvar ayı 8 nəfər, fevral ayı 9 nəfər, mart ayı 4 nəfər, aprel ayı 7 nəfər, may ayı 8 nəfər, iyun ayı 9 nəfər, iyul ayı 10 nəfər, avqust ayı 11 nəfər, sentyabr ayı 9 nəfər, oktyabr ayı 7 nəfər, noyabr ayı 10 nəfər, dekabr ayı 6 nəfər) vəfat etmişdir ki, onlardan 18 yaş 1 nəfər, 19-20 yaş 2 nəfər, 23 yaş 1 nəfər, 26 yaş 4 nəfər, 27 yaş 1 nəfər, 28-29 yaş 4 nəfər, 30-40 yaş 41 nəfər, 41-50 yaş 32 nəfər, 51-59 yaş 9 nəfər, 60 yaş və ondan yuxarı 3 nəfər təşkil edir. 2024-cü illə müqayisədə ötən il aşırı doza nəticəsində ölənlərin sayı 11 nəfər artmışdır.




**Ümumilikdə son 10 il (2016-2025) ərzində narkotik maddələrin aşırı dozasının qəbulu nəticəsində ölənlərin sayı 1337 nəfər olmuşdur.**



## 2015-2025-ci illər ərzində Respublika Narkoloji Mərkəzində qeydiyyatda olan narkotik istifadəçiləri




Hesabat ilində İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 59 nəfəri (4,7%) inyeksion narkotik istifadəçisi (İNİ) olmuşdur. Bütövlükdə 1987-ci ildən 2025-ci ilin dekabr ayının sonunadək Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV diaqnozu təsdiqlənmiş şəxslərin 27,4%-i inyeksion narkotik istifadəçisi olmuşdur.

2025-ci ildə antiretrovirus terapiyasına (ART) cəlb olunan pasiyentlərdən 68 nəfərini, habelə ART-yə cəlb olunmuş İİV-li xəstələrin 2.706 nəfərini inyeksion narkotik istifadəçiləri təşkil etmişdir.

Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində narkotik vasitələrin və psixotrop maddələrin təyini məqsədilə 5983 tədqiqat aparılmışdır. Nəticədə 15 halda tiryək alkaloidləri, 62 halda heroin, 7 halda 6-asetilmorfin, 44 halda morfin, 45 halda kodein, 331 halda kannabinoidlər, 1 halda metilekqonin, 234 halda amfetamin, 1 halda 3,4-Metilendioksiamfetamin (MDA), 214 halda metamfetamin, 2 halda metilendioksimetam-fetamin (MDMA), 43 halda metadon, 10 halda metadonun metaboliti (EDDP), 21 halda tramadol, 16 halda preqabalin (lirika), 138 halda 1,4-benzodiazepin törəmələri, 65 halda müxtəlif adda psixotrop maddə, ümumilikdə isə 956 narkotik vasitə və 293 psixotrop maddə aşkar edilmişdir.

## 2025-ci ilin dekabr ayının sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:



## Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1987-31.12.2025)




| Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi (1987-31.12.2025) | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yoluxma yolları | | Azərbaycan vətəndaşları | | | | | | Cəmi İİV-ə yoluxmuş şəxslər | | | | | |
| | | Cəmi | | Kişi | | Qadın | | Cəmi | | Kişi | | Qadın | |
| | | Say | % | Say | % | Say | % | Say | % | Say | % | Say | % |
| Parenteral yolla | inyeksion narkotik istifadəsi | 3696 | 28,2% | 3612 | 27,6% | 84 | 0,6% | 3767 | 27,9% | 3674 | 27,2% | 93 | 0,7% |
| | Donor qanı | 1 | 0,0% | 0 | 0,0% | 1 | 0,0% | 1 | 0,0% | 0 | 0,0% | 1 | 0,0% |
| | Cəmi : | 3697 | 28,2% | 3612 | 27,6% | 85 | 0,6% | 3768 | 27,9% | 3674 | 27,2% | 94 | 0,7% |
| Cinsi yolla | heteroseksual kontakt | 7921 | 60,4% | 4498 | 34,3% | 3423 | 26,1% | 8184 | 60,6% | 4664 | 34,5% | 3520 | 26,0% |
| | homoseksual kontakt | 842 | 6,4% | 842 | 6,4% | | 0,0% | 861 | 6,4% | 861 | 6,4% | | 0,0% |
| | Cəmi : | 8763 | 66,9% | 5340 | 40,7% | 3423 | 26,1% | 9045 | 66,9% | 5525 | 40,9% | 3520 | 26,0% |
| Anadan uşağa ötürülmə | | 179 | 1,4% | 83 | 0,6% | 96 | 0,7% | 182 | 1,3% | 83 | 0,6% | 99 | 0,7% |
| Naməlum | | 468 | 3,6% | 348 | 2,7% | 120 | 0,9% | 518 | 3,8% | 393 | 2,9% | 125 | 0,9% |
| Cəmi : | | 13107 | 100,0% | 9383 | 71,6% | 3724 | 28,4% | 13513 | 100,0% | 9675 | 71,6% | 3838 | 28,4% |

Dövlət Proqamının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.1.16-cı yarımbəndinə əsasən qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının mənbəyinin və nümunələrarası əlaqələrinin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində hüquq mühafizə orqanları tərəfindən təqdim olunmuş 786 fakt üzrə marixuananın, 303 fakt üzrə metamfetaminin, 201 fakt üzrə metadonun, 79 fakt üzrə

**2025-ci ilin dekabr ayının sonuna Azərbaycanda İİV-ə yoluxmuş şəxslərin yoluxma yolları üzrə bölünməsi:**

| YOLUXMA YOLU | Cəmi İİV-ə yoluxanlar | | | | Onlardan Azərbaycan vətəndaşları Cəmi | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar | Say | onlardan qadınlar | ümumi saydan 15-49 yaşda | 15-49 yaşda qadınlar |
| Anadan uşağa ötürülməklə | 11 | 5 | 1 | 1 | 11 | 5 | 1 | 1 |
| Heteroseksual kontakt nəticəsində | 1068 | 323 | 877 | 247 | 1047 | 314 | 861 | 239 |
| Homoseksual kontakt nəticəsində | 138 | | 134 | | 137 | | 133 | |
| Yoluxma yolu naməlum | 9 | 6 | 7 | 4 | 9 | 6 | 7 | 4 |
| İnyeksiyon narkotik istifadəsi nəticəsində | 61 | 2 | 52 | 2 | 59 | 2 | 50 | 2 |
| Cəmi | 1287 | 336 | 1071 | 254 | 1263 | 327 | 1052 | 246 |

çətənənin, 173 fakt üzrə heroinin, 10 fakt üzrə tiryəkin, 3 fakt üzrə həşiş qətranının eyniləşdirici ekspertiza tədqiqatı aparılmış, həmçinin Mərkəz tərəfindən məhkəmə və hüquq mühafizə orqanlarının qərarlarına əsasən təyin edilmiş ekspertizalar əsasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları üzrə 8.367 ekspert rəyi və arayış verilmişdir.

| | |
|---|---|
| **Tiryək alkaloidləri** | **15 halda** |
| **Heroin** | **62 halda** |
| **Kodein** | **45 halda** |
| **Morfin** | **44 halda** |
| **Kannaboidlər** | **331 halda** |
| **Amfetamin** | **234 halda** |
| **Metamfetamin** | **214 halda** |
| **Metadon** | **43 halda** |
| **Metadonun metaboliti (EDDP)** | **10 halda** |
| **Tramadol** | **21 halda** |
| **Preqabalin (lirika)** | **16 halda** |
| **1,4-benzodiazepin törəməsi** | **138 halda** |
| **Metilendioksimetamfetamin (MDMA)** | **2 halda** |
| **3,4-Metilendioksiamfetamin (MDA)** | **1 halda** |
| **6-asetilmorfin** | **7 halda** |
| **Metilekqonin** | **1 halda** |
| **Müxtəlif adda psixotrop maddə** | **65 halda** |
| **Ümumilikdə aşkarlanmış narkotik vasitələr və psixotrop maddələr** | **1249 halda** |

# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ



# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

2025-ci ilin sonuna penitensiar müəssisələrdə saxlanılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məhkum olunmuş şəxslərin sayı 11.014 nəfər, onlardan məhkəmələr tərəfindən narkomaniyadan məcburi müalicə təyin edilmişlərin sayı isə 6.629 nəfər təşkil etmişdir.

Tədbirlər Planının 8.4.5-ci yarımbəndinə uyğun olaraq cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər arasında antinarkotik təbliğatın gücləndirilməsi, habelə penitensiar müəssisələrin əməkdaşları üçün təlimlərinin təşkili məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Dövlət Komissiyasının İşçi Qrupunun birgə təşkilatçılığı əsasında Daxili İşlər, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin iştirakı ilə ümumilikdə 16 maarifləndirmə tədbiri keçirilmişdir.









Dövlət Komissiyasının İşçi Qrupu və Gənclər Fondu arasında antinarkotik təbliğatın gücləndirilməsi məqsədilə imzalanmış birgə Tədbirlər Planına əsasən Daxili İşlər və Səhiyyə nazirlikləri nümayəndələrinin iştirakı ilə gənclər təşkilatlarının könüllülərinə təlimlər və “Səyyar Gənclər Xidməti” layihəsi çərçivəsində müvafiq mövzular üzrə ümumilikdə 14 rayon (şəhər) üzrə 130 kəndi əhatə edən 5.350 gəncin iştirakı ilə maarifləndirici görüşlər keçirilmişdir.






Səyyar Gənclər Xidməti layihəsi çərçivəsində “Gənclər siyasəti və dövlətçilik”, “Zərərli vərdişlərə yox deyək”, “Peşə seçimi və karyera” və “Sağlam və təhlükəsiz həyat” mövzularında təlim sessiyaları keçirilib.
















Bununla yanaşı gənclər "Konstitusiya və Suverenlik ili"nə həsr olunmuş həsr edilmiş sərgi, süni intellekt alətləri ilə yaratdıqları təsvirlər və rəsm əsərləri tanış olub, daha sonra praktiki şəkildə "CV" yazılma qaydası öyrəniblər.










Tədbirlər Planının 8.4.13-cü yarımbəndinin icrası üzrə narkotik vasitələrə və psixotrop maddələrə dair təyin edilmiş ekspertizalar, həmçinin narkotik asılılığından müalicə və reabilitasiya prosesi barədə qeyri-hökumət təşkilatları nümayəndələrinin məlumatlandırılması məqsədilə Dövlət Komissiyasının İşçi Qrupunun və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə təşkilatçılığı ilə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası və Səhiyyə Nazirliyinin Respublika Narkoloji mərkəzlərində görüşlər təşkil olunmuşdur.





Tədbirlər Planının 8.4.7-ci yarımbəndinin icrası məqsədilə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti qurumların mütəxəssisləri cəlb edilməklə Yasamal, Binəqədi, Qaradağ, Xətai, Xəzər, Nərimanov, Nizami və Sabunçu rayonlarında valideynlər üçün “Narkomanlığa qarşı mübarizədə ailələrin rolu” mövzusunda maarifləndirici görüşlər təşkil edilmişdir.




Tədbirlərdə narkotik asılılığı problemində ailələrin rolu, valideyn məsuliyyəti və bu sahə üzrə məlumatlılığın artırılmasının əhəmiyyəti, habelə narkotik vasitələrin və psixotrop maddələrin insan sağlamlığına mənfi təsirləri və yaratdığı ağır fəsadlar barədə ətraflı məlumat verilib.





Tədbirlər Planının 8.4.14-cü yarımbəndinə əsasən narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti qurumların mütəxəssisləri cəlb olunmaqla Abşeron, Xaçmaz, Şamaxı, Qusar, Balakən, Şəki şəhər və rayonlarında, eləcə də paytaxtın Sabunçu, Binəqədi, Nizami, Nəsimi rayonlarında ümumi təhsil müəssisələrinin rəhbər heyəti, müəllimləri, psixoloqları və valideynlər şurasının üzvləri üçün maarifləndirici seminarlar keçirilmişdir.






Tədbirlər Planının 8.4.15-ci yarımbəndinin icrası çərçivəsində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti qurumların mütəxəssisləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri cəlb edilməklə Azərbaycan Dillər Universitetində, Azərbaycan Dövlət İqtisad Universitetində, Azərbaycan Texniki Universitetində, Azərbaycan Dövlət Pedaqoji




Universitetinin Quba filialında, Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında, 1 nömrəli Bakı Tibb Kollecində, Bakı Avrasiya Kollecində, Mingəçevir Turizm Kollecində, Mingəçevir Tibb Kollecində, Lənkəran Tibb Kollecində, Azərbaycan Dövlət Mədəniyyət və





İncəsənət Universitetinin nəzdində Humanitar Kollecdə, ADPU-nin nəznində Azərbaycan Pedaqoji Kollecində, Bakı Dövlət Peşə Təhsil Mərkəzində, Qəbələ Peşə Təhsil Mərkəzində, İsmayıllı Dövlət Peşə Tədris Mərkəzində, Qusar Peşə Liseyində, Sabirabad Peşə Liseyində tələbələr arasında antinarkotik təbliğat və maarifləndirmə tədbirləri həyata keçirilmişdir.









Daxili İşlər Nazirliyinin şəhər, rayon polis orqanları tərəfindən yeniyetmə və gənclər arasında narkotik vasitələr və psixotrop maddələr barədə məlumatlılığın artırılması, bu sahədə mövcud normativ hüquqi aktların müddəa və tələblərinin əhaliyə izah edilməsi, habelə sağlam həyat tərzinin təbliği məqsədilə ölkənin şəhər və rayonlarında 1.800-dən artıq maarifləndirici görüş keçirilmişdir.




Həmçinin, antinarkotik təbliğat işinin əhatə dairəsinin genişləndirilməsi baxımından 2 videoçarx, 1.115 sosial media paylaşımı, 109 maarifləndirici material və 387 videosüjet hazırlanaraq media resurslarında və sosial şəbəkələrdə yayımlanmış, televiziya və radio kanallarına 96 müsahibə verilmişdir.






Elm və Təhsil Nazirliyi tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin səmərəsini artırmaq üçün müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində bir sıra təbliğat və maarifləndirmə tədbirləri həyata keçirilmişdir.




Ümumi, ali və peşə təhsil müəssisələrində yeniyetmə və gənclərə narkomaniyanın zərərləri barədə maarifləndirici seminarlar, təlimlər və açıq dərslər keçirilmiş, gənclər üçün sağlam həyat tərzinin təbliği məqsədilə idman yarışları, mədəni-kütləvi tədbirlər və psixoloji dəstək proqramları təşkil edilmiş, risk qrupunda olan şəxslərə sosial reabilitasiya və məsləhət xidmətlərinin göstərilməsi üçün müvafiq dəstək mexanizmləri yaradılmışdır.

Bununla yanaşı, Təhsil TV-nin “Təhsil saatı” verilişi, podkastlar və televiziya çıxışları vasitəsilə mövcud vəziyyət, risklərin yaş qrupları üzrə aşağı düşməsi kimi ictimaiyyəti narahat edən məsələlər geniş işıqlandırılmış, dövlət qurumları, qeyri-hökumət təşkilatları və media subyektlərinin əməkdaşlığı ilə müxtəlif region və paytaxt məktəblərində maarifləndirici görüşlər təşkil edilmişdir.



Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Elm və Təhsil, Gənclər və İdman nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatı ilə birgə paytaxtın və respublikanın Lənkəran, Cəlilabad, Masallı, Astara şəhər və rayonlarının ümumilikdə 111 məktəbində, 15 peşə məktəbində və 13 universitetində “Həyatının memarı sən özünsən”, “Narkotiksiz gələcək naminə!”, “Uşaqların psixi sağlamlığının möhkəmləndirilməsi” və digər mövzularda maarifləndirici tədbirlər keçirilmiş, şagird və tələbələrə zəruri təbliğat materialları paylanmışdır.







Səhiyyə Nazirliyinin tabeliyində olan ixtisaslaşdırılmış tibb müəssisələrinin əməkdaşlarının iştirakı ilə narkomaniya ilə mübarizəyə dair müsahibələr də təşkil olunmuş, bu müsahibələr dövrü mətbuatla yanaşı, televiziya və radio kanallarında, rəsmi instagram səhifəsi üzərindən keçirilən canlı yayımlarda işıqlandırılmışdır.





Gənclər və İdman Nazirliyi tərəfindən təbliğat işlərinin daha səmərəli metodlarla həyata keçirilməsi, rayon və şəhərlərdə uşaq və gənclər arasında maarifləndirmə fəaliyyətinin təşkili məqsədilə Bakı şəhər və regional gənclər və idman idarələrinin, eləcə də gənclər evlərinin təşkilatçılığı ilə olimpiya idman komplekslərində, ali, orta ixtisas və peşə təhsili müəssisələrində “Sağlam gənclik naminə bir kimi birlikdə”, “Sağlam vərdişlər”, “Sağlam gələcək naminə narkomaniyaya yox deyək!”, “Gənclərimizi zərərli vərdişlərdən birgə qoruyaq” və digər mövzularda təlimlər, görüşlər, konfranslar, dəyirmi masalar, müxtəlif maarifləndirici tədbirlər, habelə idman yarışları təşkil olunmu şdur.





Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional idarələri tərəfindən ərazi polis orqanları ilə birgə narkotik xassəli bitkilərin aşkarlanması üzrə müvafiq işlər həyata keçirilmişdir. Belə ki, Göyçay rayonunda 5.300 ədəd, Zərdabda 1.985 ədəd, Qubadlıda 4.300 ədəd, İsmayıllıda 4.243 ədəd, Ucarda 511 ədəd yabanı halda bitmiş çətənə kolu aşkarlanaraq aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir. Bundan əlavə, Nazirliyin müvafiq qurumları tərəfindən yerli icra nümayəndəliklərinin, bələdiyyələrin, əhalinin və məktəblilərin iştirakı ilə rayon və şəhərlərdə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı ictimai mübarizə”, “Narkotik vasitələrin insan sağlanlığına mənfi təsiri”, “Narkotik vasitələrdən istifadə geniş ictimai təhlükə mənbəyidir” və sair mövzularda tədbirlər keçirilmişdir.





Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aidiyyəti mütəxəssislərin iştirakı ilə Ağcabədi rayonunda 4.175 ədəd, Bərdədə 7.164 ədəd, Qaxda 5.491 ədəd, Tovuzda 23.185 ədəd, Yardımlıda 6.700 ədəd, Beyləqanda 2.640 ədəd, Daşkəsəndə 3.819 ədəd, Füzulidə 7.052 ədəd, Gədəbəydə 12.744 ədəd, Goranboyda 12.000 ədəd, Qubada 12.388 ədəd, Qusarda 871 ədəd, Laçında 7.046 ədəd, Oğuzda 3.200 ədəd yabanı halda bitmiş çətənə kolu aşkarlanaraq aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə məhv edilmişdir.



Müdafiə Nazirliyinin tabeliyindəki birlik, birləşmə, müəssisə və təşkilatlarda da narkomanlığın cəmiyyətə və insan sağlamlığına vurduğu ağır fəsadlar barədə kompleks maarifləndirmə tədbirləri həyata keçirilmiş, bu çərçivədə bölmələrin divar qəzetləri buraxılmış, tərbiyəvi iş saatlarında izahedici söhbətlər aparılmış, mövzuya uyğun bədii filmlər nümayiş etdirilmiş, “Ordu gəncləri narkomaniyaya yox deyir”, “Sağlam həyat tərzi ailə xoşbəxtliyini təmin edən amildir”, “Narkomaniya ağ ölüm deməkdir”, “Narkomaniya insan həyatını qısaldır” və digər mövzularda mühazirələr oxunmuş, habelə narkotik vasitələrin qeyri-tibbi istehlakının profilaktikasına dair metodiki materiallar hərbi qulluqçular arasında paylanmışdır.



Tədbirlər Planının 8.4.19-cu yarımbəndinə uyğun olaraq Müdafiə, Daxili İşlər, Ədliyyə, Fövqəladə Hallar nazirlikləri, Dövlət Mühafizə, Dövlət Sərhəd, Dövlət Təhlükəsizliyi, Xarici Kəşfiyyat, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət xidmətləri, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi tərəfindən həqiqi hərbi xidmət keçənlər arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə təbliğat və maarifləndirmə işləri də gücləndirilmişdir.





Xarici İşlər Nazirliyi narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizəyə həsr olunmuş aidiyyəti beynəlxalq təşkilatların hesabatlarının və nəzarətdə olan maddələrlə bağlı zəruri məlumatların mütəmadi əsasda aidiyyəti dövlət qurumlarına təqdim etmiş, xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığı davam etdirmiş, onların müvafiq sorğuları cavablandırılmış, qarşılıqlı məlumat mübadiləsi aparılmış və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsində əlaqələndiricilik funksiyasını yerinə yetirmişdir.

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən mərkəzlərdə və kitabxanalarda "Narkotikə birlikdə yox deyək", "Gənclərimizi və gələcəyimizi qoruyaq", "Narkomaniyaya qarşı mübarizə sağlam həyat tərzinin təminatıdır" və digər mövzularda maarifləndirici tədbirlər təşkil edilmiş, Tədbirlər Planının 8.4.16-cı yarımbəndinin icrası məqsədilə həmin Nazirlik və Azərbaycan Respublikasının Kino Agentliyi tərəfindən hər il mütəmadi olaraq elan edilən "Dövlət dəstəyi ilə istehsal ediləcək film layihələri müsabiqəsi"nin reqlamentində sağlam həyat tərzinin təşviqi və zərərli vərdişlərin qarşısının alınmasına dair mövzular prioritet istiqamətlərdən biri kimi nəzərdə tutulmuşdur.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin genişləndirilməsi üçün sosial çarxlar və posterlər hazırlanaraq Nazirliyin və tabeliyindəki qurumların rəsmi internet saytlarında, sosial şəbəkə hesablarında, eləcə də DOST TV-də yayımlanmış, eyni zamanda Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində narkomanlığa qarşı mübarizəyə dair 12 maarifləndirici təlim keçirilmişdir.






Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Regional İnkişaf" İctimai Birliyi ilə birgə "Uşaqdan-uşağa" layihəsi çərçivəsində Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonları üzrə regional nümayəndələr və fəallar üçün "Zərərli vərdişlərin uşaqların orqanizminə təsiri" mövzusunda təlim təşkil etmiş,"Həyatının memarı – sən özünsən", "Narkomaniyanın reallığı" və digər mövzularda maarifləndirmə və təbliğat xarakterli tədbirlər keçirmiş, "Sağlam yaşamı həyat tərzinə çevir" adlı məlumatlandırma vəsaiti hazırlamış, sosial şəbəkələrdə və televiziya kanallarında "Narkomaniyaya qarşı birlikdə mübarizə aparaq, həyatı seçək!" adlı videoçarx yayım lamışdır.









Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi publik hüquqi şəxs (TƏBİB) tərəfindən psixoaktiv maddələrdən qeyri-tibbi istifadənin qarşısının alınması məqsədilə “Psixi xəstəliklər, alkoqolizm, narkomaniya və toksikomaniyanın ağırlaşmaları zamanı təcili tibbi yardım”, “Xəstəxanaya yerləşdirmə üçün tibbi göstərişlər”, eləcə də “İlkin və ikincili profilaktika” mövzularında profilaktik tədbirlər təşkil edilmiş, həmçinin şəhər və rayon xəstəxanalarının təşkilatçılığı ilə ali və ümumtəhsil müəssisələrində maarifləndirici görüşlər keçirilmişdir.





Dövlət Komissiyasının müvafiq iclaslarında qəbul edilmiş qərarlara əsasən Audiovizual Şura tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə mövzusunun televiziya kanallarında



işıqlandırılmasının monitorinqi aparılmış, aidiyyəti dövlət qurumları tərəfindən təqdim olunan sosial çarxlar 2025-ci ildə media vasitəsilə 16.892 dəfə, ümumölkə və regional yerüstü radio yayımçılarının efirində 11.813 dəfə yayımlanmış, habelə televiziya kanallarında ekspertlərin iştirakı ilə 110 xüsusi veriliş təşkil edilmiş, narkotik vasitələrin istifadəsinin zərərli nəticələrinə dair müəllif süjetləri hazırlanmışdır.







## 2025-ci il ərzində televiziya kanallarında yayımlanan xüsusi verilişlərin və sosial çarxların nümayişi barədə məlumat

| | Xüsusi verilişlərin təşkili | Sosial çarxların yayımlanması |
|---|---|---|
| “AZTV” | 4 dəfə | 183 dəfə |
| “İctimai” | 4 dəfə | 481 dəfə |
| “Mədəniyyət TV” | 26 dəfə | 1018 dəfə |
| “Space TV” | 11 dəfə | 338 dəfə |
| “ATV” | 4 dəfə | 1182 dəfə |
| “Xəzər TV” | 13 dəfə | 1442 dəfə |
| “ARB” | 7 dəfə | 2506 dəfə |
| “ARB 24” | 4 dəfə | 2419 dəfə |
| “Real TV” | 2 dəfə | 1303 dəfə |
| “İdman TV” | 21dəfə | 165 dəfə |
| “CBC Sport TV” | | 1399 dəfə |
| “Baku TV” | | 389 dəfə |
| “Kanal S” | | 1461 dəfə |
| “Dünya TV” | 8dəfə | 1939 dəfə |
| “MTV” | 2 dəfə | 33 dəfə |
| “Naxçıvan TV” | 4 dəfə | 413 dəfə |
| Cəmi | 110 dəfə | 16671 dəfə |

Medianın İnkişafı Agentliyi tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qəbulu, bununla bağlı yaranan problemlər barədə vətəndaşlar arasında maarifləndirmə işinin daha səmərəli təşkili məqsədilə müvafiq mövzuda çoxsaylı materialların hazırlanıb onlayn və çap mediası subyektləri tərəfindən geniş işıqlandırılmasına dair tövsiyələr verilmiş, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində görülən tədbirlər də daxil olmaqla 2025-ci ildə aidiyyəti mövzular üzrə veb-saytlarda 13 mindən çox yazı dərc olunmuşdur.


Azərbaycan Dövlət İnformasiya Agentliyi

AZƏRTAC

CƏMİYYƏT

Dövlət Komissiyası "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə məlumat yayıb

17.09.2025 [23:17]

Bakı, 17 sentyabr, AZƏRTAC

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra Dövlət Proqramı) təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası məlumat yayıb.

Məlumatda qeyd olunur ki, Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"na uyğun olaraq hazırlanıb.

AZƏRTAC

CƏMİYYƏT

Dövlət Komissiyası narkomaniya ilə bağlı maarifləndirmə tədbirlərini genişləndirir

17.07.2025 [16:28]

Bakı, 17 iyul, AZƏRTAC

Narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınması üçün vətəndaşların bu sahədə fəallığının artırılması məqsədilə bu ilin iyul ayından etibarən ölkə üzrə radio kanallarında "802 Qaynar xətt" xidmətinin fəaliyyət istiqamətlərinə dair hazırlanmış sosial rolikin yayımına başlanılıb.

Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından məlumat verilib.

Bildirilib ki, yayım Audiovizual Şura ilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

Maarifləndirici videoçarxın radio kanallarında uzun müddət yayımlanması nəzərdə tutulur.

Tədbirlər Planının 8.4.21-ci yarımbəndinə müvafiq olaraq narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində normativ hüquqi aktların müddəa və tələblərinin əhaliyə izah edilməsi məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu və Azərbaycan Respublikası Audiovizual Şurasının birgə təşkilatçılığı, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə hazırlanmış "Qara tale – ağ ölüm" adlı bədii-sənədli filmin ümumölkə televiziya kanallarında (Dünya TV, ATV, İdman TV, ARB 24, Kanal S və Baku TV), Dövlət Sərhəd Xidmətinin Akademiyasında və Nizami Kino Mərkəzində yayımlanması təşkil edilmişdir. Həmin Agentliyin ötən il elan etdiyi qrant müsabiqəsi çərçivəsində "Sağlam həyat tərzinin təbliği", eləcə də "Narkomaniya və tütündən istifadəyə qarşı mübarizə ilə bağlı maarifləndirmə kampaniyalarının keçirilməsi" üzrə 12 qeyri-hökumət təşkilatı layihəsinə 144.000 manat məbləğdə maliyyə vəsaiti ayrılmışdır.












Tədbirlər Planın 8.4.12-ci yarımbəndinə əsasən Azərbaycan Milli Antidopinq Agentliyi tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqda idmançıların maarifləndirilməsi üçün ümumilikdə 4.292 iştirakçının cəlb edildiyi 106 tədbir keçirilmiş, bu məqsədlə ADEL e-təhsil platformasından istifadə olunmuş, sözügedən platforma üzrə ümumi istifadəçi sayı 272 nəfər təşkil etmişdir. Həmçinin 2025-ci il 12 noyabr tarixdə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin, müxtəlif ölkələrin antidopinq təşkilatların rəhbərlərinin və beynəlxalq ekspertlərin iştirakı ilə "Qadağan olunmuş maddələrlə mübarizədə qurumlararası əməkdaşlığın perspektivləri" mövzusunda dəyirmi masa keçirilmişdir.








Tədbirlər Planının 8.4.6-cı yarımbəndinin icrası məqsədilə rayon və şəhər icra hakimiyyətləri tərəfindən ümumi təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında antinarkotik təbliğat işlərinin aparılması, habelə uşaq və gənclər arasında maarifləndirmə fəaliyyətinin səmərəli təşkili istiqamətində sistemli tədbirlər təşkil edilmişdir. Bu çərçivədə ərazi polis orqanları ilə birgə məktəblərdə maarifləndirici görüşlər, eyni zamanda gənclər evlərində, idman, mədəniyyət və incəsənət müəssisələrində müxtəlif mövzularda dəyirmi masalar, sərgilər və idman yarışları keçirilmişdir.




Həmçinin, aidiyyəti orqanlarla qarşılıqlı fəaliyyətin təmin edilməsi, qeyri-hökumət təşkilatlarının, könüllülərin, ictimai xadimlərin və din xadimlərinin bu istiqamətdə aktiv iştirakına şəraitin yaradılması istiqamətində bir sıra işlər görülmüş və məqsədyönlü tədbirlər həyata keçirilmişdir.




# NARKOMANLIĞA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ TƏBLİĞAT, PROFİLAKTİKA VƏ MONİTORİNQ İŞİNİN TƏŞKİLİ

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin birgə təşkilatçılığı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin hüquqi, tibbi və sosial aspektləri" mövzusunda qurumlararası dəyirmi masa keçirilib. Dəyirmi masada aidiyyəti qurumların nümayəndələri tərəfindən narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətində həyata keçirilən fəaliyyətlər və mövcud təcrübə barədə təqdimatlar edilib, o cümlədən müvafiq sahədə multisektoral əməkdaşlığın gücləndirilməsi istiqamətində təkliflər səsləndirilib.





Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkomanlığa qarşı mübarizədə əlaqələndirmə işi gücləndirilmiş, hüquq mühafizə orqanları tərəfindən əldə edilən göstəricilərin aylıq və rüblük nəticələri təhlil edilərək qiymətləndirilmiş, narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində ayrı-ayrı sosial təbəqələr üzrə təbliğat işinin təşkili sistemli xarakter daşımış, müvafiq dövlət qurumlarının, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin səylərinin artırılması, narkomanlığa qarşı profilaktik tədbirlərin və mariflәndirmə işinin aidiyyəti orqanlar tərəfindən birgə tədbirlər planları hazırlanaraq kompleks şəkildə təşkil edilməklə gücləndirilməsi təmin edilmişdir.





Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə həyata keçirilən tədbirlər və onların nəticələri barədə məlumatlılığın artırılması məqsədilə müvafiq razılaşmaya əsasən "İki Sahil" qəzetində rubrika açılmış və qrafikə uyğun olaraq aidiyyəti qurumlar tərəfindən təqdim olunan məqalələr hər həftənin şənbə günləri dərc edilmişdir.



Biz birlikdə güclüyük

Azərbaycanın dünya siyasətində artan nüfuzunun daha bir təsdiqi

Ən ülvi, ümumbəşəri və ali dəyərlər məcmusu

Azərbaycan neftinin qiyməti 66 dolları ötüb

iki sahil

Gündəlik ictimai-siyasi qəzet / № 60 (8764) / Şənbə, 12 aprel 2025-ci il

Ələt Azad İqtisadi Zonası üzrə İşçi Qrupunun ikinci iclası keçirilib

Qlobal çağırışların müzakirə olunduğu aparıcı platforma: Antalya Diplomatiya Forumu

AFFA İcraiyyə Komitəsinin qərarları açıqlanıb

Ölkələri Orta Dəhlizdə birləşdirən ortaq maraqlar

Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

BANM ilə "Acwa Power" şirkəti əməkdaşlıq edəcək

Yeni Azərbaycan Partiyasının nümayəndələri IV Antalya Diplomatiya Forumunda iştirak ediblər

İmtahanda qızıl qayda çox çalışmaq, əzmli və məqsədli olmaqdır

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri səmərəli və uğurla həyata keçirilir

İtaliyanın beş ruhlar şəhəri



6 Sosial iki sahil

Şənbə, 12 aprel 2025-ci il

Başarı problem

Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri səmərəli və uğurla həyata keçirilir

Fuqan Şahverdiyev

Hesabat ilində "26 iyun - narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu aidiyyəti qurumlar ilə birgə aşağıdakı tədbirləri keçirmişdir:

- 16-30 iyun tarixlərində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin elektron informasiya tablolarında "Özünü qoru, narkotikə hədəf olma" şüarının nümayişi;







- Azərbaycan Dövlət Reklam Agentliyi vasitəsilə maarifləndirici videoçarxların Bakı, Sumqayıt və Gəncə şəhərlərinin mərkəzi küçə və prospektlərində mövcud olan elektron reklam lövhələrində nümayişi;












- Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə sms maarifləndirmə layihəsi çərçivəsində 2025-ci il 17 iyun tarixindən başlayaraq sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı “Azərfon”, “Bakcell” MMC və “Azercell Telekom” MMC vasitəsilə ümumilikdə 9,1 milyon aktiv abunəçiyə sms bildirişinin göndərilməsi;










- “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində müvafiq sosial çarxların metropolitenin 11 stansiyasında quraşdırılmış monitorlar vasitəsilə nümayişi;







- Nəsimi, Sabunçu, Qaradağ, Abşeron rayonlarında “Zərərli vərdişlərə qarşı sağlam seçim”, “Sağlam həyat tərzi – sağlam düşüncə və uğurlu gələcək” mövzularında maarifləndirici görüşlər;





- şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalar tərəfindən maarifləndirici silsilə tədbirlər.












Tədbirlər Planının 8.4.10-cu və 8.4.22-ci yarımbəndlərinin icrası çərçivəsində antinarkotik təbliğat və təşviqat işlərinin gücləndirilməsi məqsədilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən ənənəvi, eləcə də rəqəmsal mühitdə genişmiqyaslı maarifləndirmə tədbirləri də həyata keçirilmişdir. “Rəqəmsal mühitdə gizli narkotik riskləri”, “Valideynlər üçün tövsiyələr”,






“Yeniyetmələr və gənclər üçün”, “Psixotrop maddələr haqqında həqiqət”, “Marixuana haqqında həqiqət”, “Sən bunlara hazırsanmı?”, “Narkotik vasitələrdən istifadənin insan orqanizmində yaratdığı fəsadlar” və “Narkotiklər haqqında həqiqəti bilin” adlı maarifləndirici







əyani vəsaitlər hazırlanaraq Sabunçu, Qaradağ, Nərimanov, Nizami və Xətai rayonlarında, eləcə də Lənkəran və Mingəçevir şəhərlərində keçirilən maarifləndirici aksiyalar zamanı sakinlər arasında paylanmışdır.





“Narkotiklərə birgə yox deyək!” devizi altında #SağlamGələcək, #AsılılığaYox, #İctimaiSağlamlıq və digər sosial media platformalarında paylaşılmış maarifləndirici materiallara 17.979 istifadəçi tərəfindən baxış qeydə alınmışdır.




## Maarifləndirmə və Profilaktika sahəsində qarşıda duran vəzifələr

Beləliklə, ötən ilin yanvar-dekabr ayları ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 200 tədbir (122 maarifləndirici və təşkilati tədbir, 63 təlim, 13 sosial layihə, 2 televiziya kanalında verilişdə iştirak) təşkil edilmişdir.

Dopinq və narkomanlıq risklərinin qarşısının alınması məqsədilə universitetlərin tələbə və müəllim heyəti üçün maarifləndirici seminarların və interaktiv təlimlərin həyata keçirilməsi, antinarkotik təbliğatı işlərinin sosial şəbəkələr üzərindən daha geniş auditoriyaya çatdırılması məqsədilə müxtəlif tematik həştəqlərdən istifadə olunmaqla sosial aksiyaların, onlayn maarifləndirici kampaniyaların və rəqəmsal təşəbbüslərin təşkili, idmançı və idmançıların köməkçi heyətlərinin fəal iştirakı ilə narkomaniya, alkoqolizm və toksikomanlığa qarşı mübarizə mövzusunda posterlərin, videoçarxların, qısametrajlı filmlərin və fləş-mobların hazırlanması və bu materialların maarifləndirici kampaniyalar çərçivəsində geniş ictimaiyyətə təqdim olunması və digər tədbirlərin keçirilməsi məqsədilə Azərbaycan Milli Antidopinq Agentliyi ilə birgə 2026-2027-ci illər üçün Tədbirlər Planı imzalanmışdır.

Cəzaçəkmə müəssisələrində antinarkotik təbliğatı işinin daha da gücləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar Xidməti ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən 2026-cı il üçün də birgə “Tədbirlər Planı” imzalanıb.

Gənclər təşkilatları və könüllülər üçün təlimlərin keçirilməsi, regionlarda fəaliyyət göstərən ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələri üçün ictimai mühazirə və seminarların təşkili, habelə “Səyyar Gənclər Xidməti” layihəsi çərçivəsində region gəncləri üçün maarifləndirmə tədbirlərinin, sosial aksiyaların həyata keçirilməsi və digər tədbirlərin təşkili məqsədi ilə 2026-cı il ərzində görüləcək işlərə dair Azərbaycan Respublikası Gənclər Fondu ilə birgə Tədbirlər Planı imzalanıb.

Habelə müxtəlif yaş qrupları üzrə narkomanlığın yayılma dərəcəsinin müəyyən edilməsi məqsədilə sosial araşdırmalar aparılması, nəticələrinin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması, narkotik istifadəçiləri və onların yaxın qohumları, habelə onlarla birgə yaşayan digər şəxslər üçün onlayn məsləhətlər verilməsi məqsədilə klinik (tibbi) psixoloq və həkim-narkoloqların iştirakı ilə virtual dəstək mexanizminin yaradılması, narkotik asılılığından əziyyət çəkən şəxslərin müalicəsi prosesində tətbiq üçün psixoloji dəstək proqramlarının hazırlanması, narkotik və psixotrop maddələr haqqında məlumatlılığın artırılması məqsədilə ümumi təhsil müəssisələrinin rəhbərliyi, müəllimləri, psixoloqları, valideynlər şurasının üzvləri və şagirdləri üçün seminarların keçirilməsi, müasir informasiya texnologiyalarının imkanları nəzərə alınmaqla, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi, sosial çarxların hazırlanması və media subyektlərində, sosial şəbəkələrdə geniş işıqlandırılması və digər tədbirlərin həyata keçiriilməsi nəzərdə tutulur.

# QEYD

# QEYD

# QEYD

İLLİK HESABAT
2025